# BU YOL NƏGMƏ YOLUDUR

*1953-cü il avqust ayının 11-də Naxçıvan şəhərində, Bazar çayının ətrafında çox da təmtəraqlı olmayan bir mənzildə, Yusif Səməd oğlu Əsgərov dünyaya göz açıb. İlk eşitdiyi musiqi tar səsi olub. Atası Səməd Əsgərov tibb işçisi olsa da gözəl tar çalırdı. Bəlkə də, Yusifdə musiqiyə həvəs yaranmasında bunun böyük rolu olmuşdur.*
*Yusif orta təhsilini Naxçıvan şəhərindəki Əkbər Ağayev adına İnternat məktəbində alıb. Burada keçirilən tədbirlərdə fəal iştirak edib. Orta məktəbdə oxuduğu müddətdə onun musiqiyə olan marağı müəllimlərinin diqqətindən yayınmayıb. Məhz onların və valideynlərinin məsləhəti ilə Yusif sənədlərini 1965-ci ildə Naxçıvan şəhər 1 saylı uşaq musiqi məktəbinə verir.*

Bəstəkar, dirijor, xormeyster Məmməd Məmmədovun sinfində akkordeon və truba ixtisası üzrə dərs alır. 1970-ci ildə həmin məktəbi müvəffəqiyyətlə bitirir. Onun qabiliyyət və bacarığı, musiqiyə olan meyli bəstəkar Məmməd Məmmədovun diqqətini cəlb edir. Onu 16 yaşında (o vaxt 8-ci sinifdə oxuyurdu) Naxçıvan teatrının musiqi hissəsinə akkordeon və truba çalan kimi dəvət edirlər. (Həmin vaxt teatrın direktoru Sübhü Kəngərli idi). Bu hadisə 1969-cu ildə olmuşdu. Elə o vaxtdan da Yusif həyatını Naxçıvan teatrına bağlayır. Teatrda çalışdığı ilk gündən gənc Yusif bəstəkar M. Məmmədovun etimadını doğruldur. Yusif teatrda işləyə-işləyə Moskvada İncəsənət Universitetinin başlanğıc nəzəriyyə kursunu (1975-1976) bitirir. Qabiliyyət və bacarığını, səmimiliyini, işə münasibətini nəzərə alan teatr rəhbərliyi Azərbaycan Respublikasının əməkdar artisti, teatrın baş rejissoru Vəli Babayevin təqdimatı ilə 1977-ci ildə onu musiqi hissə müdiri və dirijor vəzifəsinə təyin edir. Teatrda işlədiyi müddətdə o, daim öz üzərində işləyir, musiqi təhsilini artırmaq üçün yollar arayır. 1981-ci ildə Soltan Hacıbəyov adına Sumqayıt Orta İxtisas Musiqi Məktəbinin "Nəfəs alətləri" fakültəsinin qiyabi şöbəsinə qəbul olunur. Burada o, Azərbaycan Dövlət Sirkinin bədii rəhbəri və baş dirijoru Həsən Abasquluyevdən orkestr və dirijorluq sənətinin sirlərini əxz edir. Müəllimlərindən aldığı təcrübə onun karına çatır. Sumqayıt Orta İxtisas Musiqi Məktəbini müvəffəqiyyətlə başa vuran Yusif elə həmin il (1986) Üzeyir Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasının qiyabi şöbə üzrə "Orkestr alətləri" fakültəsinə daxil olur. 1990-cı ildə Konservatoriyanı müvəffəqiyyətlə bitirir. Burada da o, görkəmli müəllimlərdən - Azərbaycan Dövlət Nəfəs Alətləri orkestrinin bədii rəhbəri və baş dirijoru, dosent Vaqif Süleymanov, Azərbaycan Dövlət Simfonik Orkestrinin solisti, dosent Elxan Rüstəmov və bəstəkar-dirijor Həsən Rzayevdən dərs alır. (Hazırda Elxan Rüstəmov Türkiyə Respublikasının müxtəlif konservatoriyalarında işləyir. Azərbaycan musiqisinin təbliğində yorulmadan çalışır.)



Tanınmış musiqiçi Y.Əsgərov 1978-1979-cu illərdə Moskva Ümumittifaq Mədəniyyət İşçiləri İxtisasartırma İnstitutunda Simfonik orkestrlərin dirijoru kursunu da keçir. Burada o, İttifaq miqyaslı görkəmli mütəxəssislərin - Böyük teatrın bədii rəhbəri və baş dirijoru RSFSR əməkdar artisti Yuri Simonov, Böyük teatrın dirijoru Fuad Mansurov və SSRİ Akademik Simfonik Orkestrinin bədii rəhbəri və baş dirijoru SSRİ xalq artisti Yevqeni Svetlanovun yanında təcrübə keçir.

İstər təhsil aldığı illərdə, istərsə də ixtisasartırma kursunda aldığı bilik və təcrübə işi prosesində Naxçıvan teatrında vokal və orkestr sənətlərinin inkişafında mühüm rol oynayır. Odur ki, Yusif Əsgərov Naxçıvan teatrında ustalıqla Çingiz Aytmatov və Kaltay Məhəmmədcanovun "Fudzi dağında qonaqlıq" tamaşasının bəstəkarı, Georgi Xudayevin "Mənim qayınanam", Şota Rokvanın "Yaşıl papaq", Hidayət Orucovun "Məni qınamayın", Anton Pavloviç Çexovun "Üç zarafat", Rauf İçərişəhərlinin "Arzum çin oldu", "Kələkbaz qızlar", Cəlil Məmmədquluzadənin "Anamın kitabı", Üzeyir Hacıbəyovun felyetonları əsasında hazırlanmış "Ordan-burdan", İsi Məlikzadənin "Gəl qohum olaq", Panço Pançevin "Dörd ekiz haqqında nağıl", Elçin Əfəndiyevin "Mənim ərim dəlidir", Adil Babayevin "Yarımçıq şəkil", Valeri Qubarevin "Sehrli yaylıq", İlyas Əfəndiyevin "Şeyx Xiyabani" tamaşalarının musiqi tərtibatçısı, Üzeyir Hacıbəyovun "Ər və arvad", "Məşədi İbad", "Arşın mal alan", Zülfüqar Hacıbəyovun "Əlli yaşında cavan", Süleyman Ələsgərovun "Hardasan, ay subaylıq", "Sevindik qız axtarır", "Özümüz bilərik", "Hərənin öz ulduzu", Vasif Adıgözəlovun "Boşanaq, evlənərik", Emin Sabitoğlunun "Hicran", Səid Rüstəmovun "Beş manatlıq gəlin", Fikrət Əmirovun "Ürək çalanlar", Şəfiqə Axundovanın "Qayınana" musiqili komediya və operettalarının dirijoru olmuş, tamaşalarda hadisələrin dinamikliyini artırmaqla, məzmunun tamaşaçılar tərəfindən emosional qavranılmasına zəmin yaratmışdır. Görkəmli bəstəkarımız Fikrət Əmirovun H. Cavidin "Şeyx Sənan" faciəsinə yazdığı parteturanı da Naxçıvan teatrında Yusif Əsgərov müvəffəqiyyətlə hazırlamış və dirijorluq etmişdir.



Dahi Azərbaycan bəstəkarı Üzeyir Hacıbəyovun "Məşədi İbad" musiqili komediyası Yusif Əsgərovun dirijorluğu ilə 1997-ci ildə qardaş Türkiyə Respublikasının Iğdır, Trabzon, Ankara şəhərlərində müvəffəqiyyətlə nümayiş etdirilmişdir.

Türkiyə Respublikasının 75 illiyi münasibətilə (1998) Ankara, İstanbul, Bursa şəhərlərində Ü. Hacıbəyovun "Arşın mal alan" operettası müvəffəqiyyətlə göstərilmişdir. Gülçöhrə rolunun ifaçısı Azərbaycan Dövlət Milli Opera və Balet Teatrının solisti, Azərbaycan Respublikasının əməkdar artisti Zemfira İsmayılova olmuşdur. Bu tamaşanın da dirijoru Yusif Əsgərov idi.

Naxçıvan teatrında Ü. Hacıbəyovun "Məşədi İbad", Süleyman Ələsgərovun "Hardasan, ay subaylıq", "Sevindik qız axtarır", Şəfiqə Axundovanın "Qayınana", Emin Sabitoğlunun "Hicran", Zülfüqar Hacıbəyovun "Əlli yaşında cavan", Səid Rüstəmovun "Beş manatlıq gəlin" musiqili komediyaları Azərbaycan Respublikasının xalq artistləri Nəsibə Zeynalova, Hacıbaba Bağırov, Səyavuş Aslan, Arif Quliyev kimi görkəmli komediya ustalarının iştirakı ilə Naxçıvan teatrında yerli aktyorlarla birlikdə oynanılmış, dirijor pultu arxasında Yusif Əsgərov dayanmışdır.

O, teatrımızın müxtəlif nəslinə mənsub olan - İbrahim Həmzəyev, Baxşı Qələndərli, Vəli Babayev, Əliqismət Lalayev, Kamran Quliyev, Rövşən Hüseynov və Azərbaycan Respublikasının görkəmli sənətkarları Niyaz Şərifov, Ağakişi Kazımov, Nəsir Sadıqzadə, Yusif Əkbərov, Vaqif Azəryar kimi rejissorları ilə müştərək tamaşalar hazırlamışdır.

Seçdiyi sənəti bütün varlığı ilə sevmək, zəhmətə qatlaşmağı bacarmaq, musiqi texnikasına yiyələnməyə səy göstərmək, təvazökarlıq və bu kimi keyfiyyətlər bir ifaçı dirijor və müəllim kimi Yusifin yaradıcılığının əsas xüsusiyyətlərindəndir.

Onun fəaliyyəti təkcə teatrla məhdudlaşmır. Vaxtilə Naxçıvan şəhər internat, 39 saylı Dəmiryol orta məktəblərində "Nəfəs alətləri" orkestrləri yaradıb və rəhbəri olub. Yusif müəllim Muxtar Respublikanın müxtəlif musiqi məktəblərində pedoqoji fəaliyyətlə də məşğul olur. O, bir müəllim kimi tələbkar və qayğıkeşdir. O, öz təcrübəsini tələbələrindən əsirgəmir, yeni musiqi nömrələrini dönə-dönə məşq etməkdən hədsiz zövq alır. Yetirmələrindən bir çoxu Muxtar Respublikanın musiqi məktəblərində, Naxçıvan Dövlət Filarmoniyasında, eləcə də özü ilə çiyin-çiyinə teatrda fəaliyyət göstərirlər.

Bir haşiyə çıxmaq istəyirəm ki, Yusif anadan olandan sonra ayağı sayalı olub. Həmin ailədə musiqiçilər yetişib. Böyük qardaşı Məmməd Azərbaycan Dövlət Konservatoriyasının "Nəfəs alətləri" fakültəsini bitirib. Hazırda Muxtar Respublikada gənc musiqiçi kadrlarının (nəfəs alətləri üzrə) yetişməsində böyük əmək sərf edir. Mahir Bakı Ali Komandirlər məktəbində"Nəfəs alətləri" orkestrinin bədii rəhbəri və baş dirijorudur. Tofiq Bakı Dənizçilik "N" hərbi hissəsində "Nəfəs alətləri" orkestrinin bədii rəhbəri və baş dirijorudur. Mübariz isə Naxçıvan Dövlət Universitetinin "Musiqi ifaçılığı" fakültəsində təhsil alır, teatrda işləyir və Naxçıvan Dövlət Universitetinin Teatr studiyasında hazırlanan Ü. Hacıbəyovun "Arşın mal alan" operettasının rejissorudur.

Bajarığı, işgüzarlığı, gözəl ifaçılıq qabiliyyəti olan bir musiqiçi kimi Yusif Əsgərov bu gün də öz doğma peşəsinin öhdəsindən şərəf və ləyaqətlə gəlir, qədim məbəd sayılan Naxçıvan teatrında fəaliyyət göstərir və Muxtar Respublika incəsənətinə öz gözəl töhfəsini verir. Onun fəaliyyəti Muxtar Respublikanın musiqi ictimaiyyəti tərəfindən yüksək dəyərləndirilir.

Ömrünün kamillik dövründə yaşayan Y. Əsgərov bu gün öz qaynar fəaliyyəti ilə nəzərdə diqqətlənir. Bu yolda ona yeni yaradıcılıq sevincləri arzulayırıq.

**Əli Qəhrəmanov,**
**AMEA Naxçıvan bölməsi İncəsənət, dil və ədəbiyyat institutunun əməkdaşı, sənətşünaslıq namizədi**